# Şairlik - Tanrıdan sərkərdə rütbəm!

Xalqın sevilən şairi olmaq üçün mükəmməl tərbiyə almalısan:

*Mən anamın qucağında sevilməyi öyrəndim -*
*əynim isti, qarnım dolu, gözüm, könlüm tox oldu...*
*Mən anamın gözlərindən yaşamağı öyrəndim -*
*Sevənim çox, öyənim çox, istəyənim çox oldu.*

Şairlər dünyaya müxtəlif adlar verib: "sirli", "sehrli", "zalım", "ədalətsiz", "heç kəsə qalmayan", "fani" və s. Vahid Əziz üçün "Qəribə dünya"dı bu dünya:

*Hərdən dünya sünbül olur,*
*Qaval kimi yüngül olur,*
*Hərdən şeyda bülbül olur -*
*Verir səs-səsə mənimlə.*

*Hərdən görürsən dəlidir,*
*Döyür - imansız əlidir!*
*Vallah dünya gülməlidir -*
*Az qalır küsə mənimlə.*

Bu qəribə dünya ilə dil tapmağın çətinliyini dərk etdiyi üçün "Dünya kimə qaldı?" sualına "Bekara qaldı" cavabını alır şair:

*Mən də duydum, gidi dünya kimsənin deyil,*
*nə əfələ, nə dəliyə, nə kürə qaldı,*
*Yer üzünnən keçib getdi milyon-milyon il,*
*nə dəyirman, nə xaniman, nə kürə qaldı!*

*Aydı, gündü: gah dolaşır, gah düyün keçir,*
*bənna həyat, sınaqlardan hördüyün keçir!*
*Vahid Əziz yır-yığışa ömür-gün keçir,*
*sual etdim, zaman dedi - "Bekara qaldı..."*

Vətənini sevən, ona layiqli vətəndaş olan şairin - Vahid Əzizin sevgi anlayışı da fərqli biçimdədir. Şairlərin böyük əksəriyyəti nakam sevgidən gileyləndiyi halda, Vahid Əziz "Sevmişəm - bəxtəvər olmuşam" deyir:

*Əzabını çox çəkmişəm qara gözünün,*
*Həsrətini çox çəkmişəm şirin sözünün,*
*Yenə bəxtəvər olmuşam,*
*Hər vaxt bəxtəvər olmuşam,*



*Çünki sevmişəm.*

Ustadın sevgi haqqında yazdığı bütün şeirlərində sadiqlik, paklıq, əhdə vəfalılıq, istiqanlılıq var. Vahid Əzizin dili xalq dilinə çox yaxındır. Şair sevdiyinə gözəl sözlərlə müraciət edir, ona "çiçəyim", "gülüm" deyir:

*Çiçəyim, sevginmi, qəlbinmi zalım,*
*neynəyib səninlə əbədi qalım?*
*Özüm həsrətindən solub-saralım,*
*Hicran həyatımdan dad aparmasın.*

Vahid Əzizə sevgidən, eşqdən yazmaq göstərişini Tanrı verib. Yazdıqları ilə yaşadıqları arasında uyğunsuzluq olmayan, sevgisini də, nifrətini də xalqdan gizlətməyən Şair yazır:

*Dərədən-təpədən yazmağa nə var,*
*Dumandı - yaz getsin, çəndi - çəkilsin,*
*sevgidən yazdım ki, nakam qalanlar*
*oxuyub dərdini unuda bilsin.*

Dünyanı, insanları böyük eşqlə sevən şair qadınları "çiçək" timsalında görür, onlara yüksək dəyər verir:

*Sevib-sevilməkdən ürək yorulmaz,*
*Daş da sevə-sevə ovunub gedir,*
*Babatı, çirkini, kifiri olmaz -*
*Qadınlar çəməndə çiçək kimidir!*

Vahid Əziz yaradıcılığında təbiət təsvirləri də mükəmməldir. Şair var, yazır, oxuyuruq, amma gözlərimiz önündə heç nə canlanmır. Vahid Əzizin bu mövzuda da bəxti gətirib desəm, yanılmaram. Ustadın yaradıcılığında Təbiət elə öz saflığı, səxavəti, dəliqanlılığı ilə Təbiətdir və bu səbəbdən də Müqəddəsdir. Şair "Səxavət" mənbəyi olan Torpağa şeirində belə dəyər verir:

*Torpağa bir dən atsan*
*Sənə bir sünbül verər.*
*Qışın oğlan çağında*
*Bir gün yatan torpağı*
*Haray salıb oyatsan,*
*Açsa yaşıl gözünü,*
*Sənə qızılgül verər...*

Vahid Əziz yaradıcılığında Torpaq sehrlə, inancla süslənmiş qutsal bir anlayışdır. Şair torpağı, təbiəti o qədər mükəmməl və təsirli boyalarla təsvir edir ki, oxucunun gözləri önündə yüksək səviyyədə işlənmiş rəsm əsəri canlanır:

*Torpaqda, səmada bahar nəfəsi,*
*Buludlar sulanıb, gilə-gilədi,*
*Kükrəyən çayların bərəkət səsi,*
*Qayıdan dumanın sədası gəldi.*

*Budur, dincliyimi yer də alıbdır,*
*Sünbüllər yamyaşıl qalxdı, dikəldi,*
*Evində qaranquş yuva salıbdır!" -*
*Qonşu uşaqları xəbərə gəldi.*

Vahid Əzizin mükəmməl "Şəxsiyyət portreti"ni təşkil edən əsas xətlərdən, cizgilərdən biri onun mədəni, vicdanlı, elə-obaya bağlı olmasıdır.

Sizin peşəsi Tanrıdan sərkərdə rütbəsi olan Vahid Əzizin bir sözündən çıxmalı olacam. Siz "Mənə yüz il ömür arzulamayın" desəniz də, mən Sizə Tanrıdan elə bir ömür diləyirəm ki, hər vaxt sevə biləsiniz, sevilə biləsiniz.

**Leyla İmaməliyeva**





Kaspi 2019. - 7-9 dekabr.- S.21.